# Qəlbin hökmündən başlanan yol

Səs-küylü tənəffüslərdən birində müəllimlər otağının qapısı döyülür. Qoltuğunda içi dolu bir qovluq tutmuş altıncı sinif şagirdi ədəbiyyat müəllimini görmək istədiyini bildirir. Mehman müəllim baxışlarının ifadəsi özündən çox-çox böyük görünən şagirdini mehribanlıqla qarşılayır. Eşidəndə ki, bu iri qovluqda "bir neçə pyes, bir neçə hekayə və beş-altı şeir var", Mehman müəllim bir az çaşır, ancaq tez də gülümsünüb əlini şagirdinin çiyninə qoyur: "Sənin belə işlərin də var?" Şagirdi isə müəllimindən xahiş edir ki, qovluqdakı yazıları oxuyandan sonra fikrini bildirsin...

Çox qısa bir vaxtda təkcə Gürcüstanm Qardabani rayonundakı Kosalı orta məktəbinin müəllim-şagird kollektivi deyil, ətraf kəndlərdə də altıncı sinif şagirdi Hamletin "qovluğundan" xəbər tutdular. Ədəbiyyat müəllimləri bu istedadlı şagirdin timsalında gələcəyin ciddi qələm sahiblərindən birini görəcəklərinə ümidləndikləri vaxt Hamletin atası riyaziyyatçı Abdulla müəllim oğlunun qeyri-adi riyazi qavrama qabiliyyətini görüb onu bu sahəyə daha çox yönəltməyi qərara alıb. Əslində digər fənləri tədris edən müəllimlər də sinifdən-sinifə keçdikcə bənzərsiz fitri istedada malik Hamleti gah tarixçi, gah coğrafıyaçı, gah kimyaçı kimi görəcəklərinə çox inanırdılar. İllər ötdü. Zaman öz sözünü dedi. "Bir neçə pyes, bir neçə hekayənin və beş-altı şeirin" yaratdığı ovqat həmin qovluqla birgə yaddaşın uzaq bir küncünə sıxışdırıldı.

Kosalı orta məktəbinin riyaziyyat müəllimi Abdulla İsayevin çox ciddi səyi nəticəsində oğlu Hamletin riyaziyyatın, fizikanın üfüqlərinin, ənginliklərinin fəthinə sarı inam və qətiyyətlə dolu bir "yürüşü" başladı. Bu "yürüşün" arxasında və önündə dayanan yuxusuz gecələr, bu gecələrdən parlaq dan üzünə boylanan uğurlar gənc Hamleti elmin sirli kəhkəşanlarına doğru çəkdikcə çəkirdi. Artıq onun həyat tərzi elə idi ki, gündüzlə gecəsi arasındakı sədd itir, dəftər-kitab üzərində, iş stolu arxasında axtardıqlarını bəzi hallarda səksəkəli yuxularının aşırımlarında tapırdı. Bu, bir həqiqət idi: artıq zaman məfhumu, gecə-gündüz anlayışı gənc bir elm adamı üçün mahiyyətini dəyişmişdi.

Aylar ötdükcə, illər bir-birini əvəzlədikcə fızika-riyaziyyat elmi öz qapılarını bənzərsiz bir alimin üzünə taybatay açır, bütün sirlərini və gizlinlərini onun fədakar zəhmətinə və halal axtarışlarına, uğurlarma təslim edirdi. Bir az da konkret faktlara müraciət etsək, daha doğrusu, ömür kitabının səhifələrini çevirsək, yerinə *düşər*.

1948-ci il martin 1-də Gürcüstanın Qardabani (Qarayazı) rayonunun Kosalı kəndində doğulan Hamlet Abdulla oğlu İsaxanlı (İsayev) 1965-ci ildə orta məktəbi qızıl medalla bitirərək Azərbaycan Dövlət Universitetinin mexanika-riyaziyyat fakültəsinə qəbul olunmuş və 1970-ci ildə oranı fərqlənmə diplomu ilə bitirmişdir. 1970-1973-cü illərdə Azərbaycan Elmlər Akademiyası Riyaziyyat və Mexanika İnstitutu tərəfindən M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin mexanika-riyaziyyat fakültəsinə aspiranturada oxumağa göndərilmiş və 1973-cü il-də "Operator dəstələrin spektral nəzəriyyəsinin bəzi məsələləri" mövzusunda dissertasiya işini müdafiə edərək fızika-riyaziyyat elmləri namizədi alimlik dərəcəsi almışdır.

1973-1983-cü illər ərzində Hamlet İsaxanlı Moskvada və Bakıda, M.Lomonosov adına Moskva Dövlət Universitetində, SSRİ Elmlər Akademiyasının V.İ.Steklov adına Riyaziyyat İnstitutunda, Azərbaycan Elmlər Akademiyası Riyaziyyat və Mexanika institutunda. Azərbaycan Dövlət Universıtetində çalışmış, elmi tədqiqatla məşğul olmuşdur. Daha sonralar Azərbaycan Dövlət Neft və Kimya İnstitutunda və Leninqrad (Sankt-Peterburq) Maliyyə və İqtisad institutunda professor və kafedra müdiri kimi fəaliyyət göstərmişdir.

1983-cü ildə H.İsaxanh Moskvada SSRİ Elmlər Akademiyası V.İ.Steklov adına Riyaziyyat institutunda "Çoxparametrli spektral nəzəriyyənin bəzi məsələləri" mövzusunda dissertasiya işini müdafıə edərək fizika-riyaziyyat elmləri doktoru alimlik dərəcəsi almışdır.

H.İsaxanlı riyaziyyatın çoxparametrli spektral nəzəriyyə kimi çox mühüm, yeni və çətin bir sahəsində dərin tədqiqatlar aparan ilk sovet riyaziyyatçısıdır. Onun elmi əsərləri dəfələrlə SSRİ Elmlər Akademiyasının Rəyasət Heyəti tərəfindən "İlin ən yaxşı elmi işləri" siyahısına daxil edilmiş, Sovet İttifaqı, Amerika Birləşmiş Ştatları, Böyük Britaniya, Kanada, Almaniya kimi ölkələrdə nüfuzlu elmi

jurnallarda dərc olunmuş və müəllifinə böyük şöhrət gətirmişdir. Avropa, Amerika vo Asiyada yerləşən müxtəlif elm mərkəzləri, akademiya və universitetlər H.İsaxanlını mühazirələr oxumağa, birgə tədqiqatlar aparmağa, nüfuzlu elmi konfranslara məruzəçi kimi dəvət etmişlər.

Qərb ölkələrində təkcə elmi-tədqiqatla deyil, elm və təhsilin təşkili ilə də ciddi maraqlanan H.İsaxanlı bu sahə üzrə məqalələr yazmaqla yanaşı, Azərbaycanda təhsilin inkişafına kömək etmək arzusu ilə tamamilə yeni tipli ali məktəb yaratmaq qərarına gəldi. 1990-cı ilin payızında başlanan bu fəaliyyət nəticəsində Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1990-cı il 20 dekabr tarixli sərəncamı ilə hazırlıq işləri aparıldı və 1991 -ci il martın 18-i tarixli qərarla Xəzər Universiteti (o zaman "İngilisdilli Azərbaycan Universiteti") yaradıldı. 19 tələbə və 7 müəllimlə fəaliyyətə başlayan Xəzər Universiteti Azərbaycanın ilk özəl ali məktəbi olmaqla yanaşı, keçmiş sovetlərdə rəsmi yaradılmış ilk özəl ali məktəblərdən biri idi. Hamlet İsaxanlının təşəbbüsü vo rəhbərliyi ilə tədris-proqram planlanının Qərb standartlarma uyğunluğu, tədris modeli olaraq tələbənin fərdi yolla inkişafını təmin edən çevik kredit metodunun tətbiqi, əsas tədris dili olaraq ingilis dilinin seçilməsi, müasir idarəetmə üsullarının tətbiqi, geniş və səmərəli beynəlxalq əlaqələrın qurulması, ən səviyyəli yerli və xarici mütəxəssislərin işə cəlb edilməsi, tapşırıq-rüşvət sisteminin aradan tam qaldırılması, ümumiyyətlə, ciddi və keyfıyyətli təhsilin təmin edilməsi nəticəsində Xəzər Universiteti tezliklə Azərbaycanda vo postsovet-Yaxın Şərq məkanında nüfuzlu ali məktəblərdən birinə çevrildi. Azorbaycan ali təhsilində iki pilləli bakalavr-magistr sisteminin bərqərar olmasında, sonralar Bolonya prosesi adlanacaq Avropa ali təhsil məkanının yaradılması və Azərbaycanın bu prosesə qoşulması (2005) işində Xəzər Universitetinin təcrübəsi müsbət rol oynadı.

Universitetin kitabxanası Azərbaycanda kompüter-axtarış sisteminə malik ilk kitabxanadır, özəl universitet kitabxanalarının ən böyüyü olmaqla bərabər, ölkəmizdə ən böyük ingilisdilli kitabxanadır.

***Camal Mustafayev, professor:*** *"Hamlet Isaxanlı riyaziyyatla məhdudlaşmır, onun maraq dairəsi olduqca əhatəlidir. Rasional təfəkkürlə mənəvi mədəniyyəti özündə bir vəhdətdə birləşdirib. Avropa, Şərq, rus elmi, bədii fikrindən səmərəli faydalanır. Ancaq bu mənbələrdən əxz etmək onu milli kökümüzdən ayırmır, əksinə, mənəvi varlığımızı müqayisəli şəkildə dərindən anlamağı şərtləndirir. Hamlet musiqimizi, şeirimizi, folklorumuzu müfəssəl bilən, duyan bir ziyalıdır".*

***Akademik Mirabbas Qasımov isə belə demişdir:*** *"Eyni zamanda onun tarix, təhsilsiyasəti, siyasi və humanitar elmlər.sahəşində Hamlet İsaxanlı adı altında apardığı tədqiqatları, elmi və publisistikyazıları tək-tək alimlərə xas olan hərtərəflilik nümunəsidir. Enerjisi aşıb-daşan, yeni addımlar atmağı özündə bir adətə çevirən Hamlet İsaxanlıda dəyişməyən, həmişəki kimi qalan cəhət isə insanpərvərlik, gülərüzlülükdür, yaradıb-qurmaq həvəsidir".*

İllər öncə, altıncı sinifdə oxuyarkən ədəbiyyat müəlliminə fıkir bildirmək üçün verdiyi və yaddaşın uzaq bir küncünə sıxışdırılıb qalmış "bir neçə pyes, bir neçə hekayə və beş-altı şeir qovluğu"nun "səsi" isə sonralar daha gur çıxdı.

Bu gün Hamlet İsaxanlı tanınmış şairdir, şeirləri və şeir kitabları müxtəlif dillərdə və ölkələrdə çap olunmuş, geniş rəğbət qazanmışdır. O, özü də müxtəlif dillərdən bədii tərcümələr etmişdir. Hamlet İsaxanlı bir sıra lüğət və antologiyaların tərtibçisi, jurnalların təsisçisi və redaktoru, dərslik və monoqrafiyaların, tərcümə nəşrlərinin redaktoru, beynəlxalq və ölkədaxili konfransların təşkilatçısı kimi də geniş fəaliyyət göstərmiş və göstərməkdədir.

Hamlet İsaxanlı 40-dan çox ölkədə riyaziyyat, təhsil, siyasət, tarix və mədəniyyət üzrə oxuduğu mühazirələrlə, rəhbərlik və iştirak etdiyi layihələrlə Azərbaycanı layiqincə təmsil etmişdir. O, bir sıra nüfuzlu beynəlxalq təşkilatların, assosiasiyaların, akademiyaların üzvü və ya idarə heyətinin üzvü olaraq mükafat və təltiflər almışdır. Hamlet müəllim Azərbaycan Respublikası Prezidenti yanında Təhsil Komissiyasının üzvü kimi də ölkəmizdə elm və təhsil sahəsində aparılan islahatların həyata keçirilməsində fəal iştirak edir.

Böyük türk mütəfəkkiri İsmayü bəy Qaspralı yazırdı: "Bir insan üçün gerçəklik və doğruluq sadəcə altundan (qızıldan) deyil, vətənpərvərlikdən belə dəyərli olmalıdır".

Bu gerçəklik və doğruluq ömrünün altmışıncı aşırımını arxada qoyan Hamlet İsaxanlının elmi-bədii yaradıcılığını, eləcə də bütün yaşam tərzini, həyat fəaliyyətini şərtləndirən prinsiplərdir. Görkəmli alimə cansağlığı və uğurlar arzulayırıq.

Telman Nəzərli

“Azərbaycan” qəzeti, 19 mart 2008